# Sual

*hekayə*



Lao Ma



İyirmi ildən sonra ilk dəfə olaraq bitirdiyim universitetə qayıdanda hətta şəhərciyin bitkiləri də iyirmi il əvvəlin tənbəl tələbəsinə sakitcə gülürdülər.

Universitetin təmir olunmuş girişində dayanıb doğma universitetimin dəyişikliyinə baxıb dərindən köks ötürdüm. Fəlsəfə kafedrası köhnə binadan çoxmərtəbəli binaya köçmüşdü, qapıçı mənə belə dedi. Məncə, bu qapıçı biz tələbə olanda qapıçı işləyən kişinin oğludur, belə güman etdim. Bir-birinə çox oxşayırdılar, yəqin ki, o qoca qapıçı ötüb keçən illərin əlindən canını sağ qurtara bilməyib.

Bundan başqa demək olar ki, şəhərcikdə heç nə dəyişməmişdi. Bütün bunlar əvvəlki kimi köhnə idi, ciddi maliyyəyə ehtiyacı vardı. Bu yeniyetmə qızlar gündə bir don dəyişsə də universitet əvvəlki formada idi.

Bu sinif otaqlarında işlətdiyim ən gözəl ifadələri yadıma salmaq istədim.

O vaxtlar mən fəlsəfə fakültəsinə heç bir səbəb olmadan qəbul edilmişdim, mənim o biri otuz tələbə yoldaşlarım da mənim kimi. O biri tələbələrin çoxu fəlsəfənin anlaşılmazlığı, mücərrədliyi içində sıxılırdılar. Gözləri quzğun gözlərinə oxşayırdı.

Dörd il bizə çox uzun gəldi. Universiteti bitirməyə az qalmış iki tələbəyə şizofrenik diaqnozu qoyuldu, ikisi kəndə qayıdıb heyvandarlıqla məşğul olmağı üstün tutdu. Başqa üç tələbə isə hər gün başqa sinif otaqlarına gedib girirdilər (universitetdən qovulana qədər onlar gah mühasibat, gah da jurnalistika fakültəsinin auditoriyalarına getdilər) Buna görə universiteti bitirəndə bizə elə gəldi ki, biz ya təqaüdə çıxmışıq, ya da həbsdən azad edilmişik.

Buraxılış mərasimində kafedranın rəhbəri bu fakültədə tələbələri həyəcanlandıran və onları incidən məqamlara da toxundu:

- Əgər fəlsəfə olmasaydı onda dünya necə olardı?

Tələbələrin çoxu kövrəldi. Neçə illər ərzində tələbələr bu ehtimalın praktikaya tətbiq edilməsinə nə qədər ümid etmişdilər! Müəllimlərin də bir neçəsi kövrəldi - bu şərti sualın cavabından onların yaşayış şəraiti asılı idi. Əgər fəlsəfə olmasaydı onda onların da dünyası mövcud olmazdı. Onda onlar məntiqin əleyhinə çıxar, ya da bu nəticəyə gələrdilər.

Bütün fəlsəfə, xüsusilə də müasir fəlsəfənin əsas fundamental sualı fikir və varlıq arasındakı əlaqə haqda olan sualdır. Hətta ən küt tələbələr də bu şüara bənzər sual barədə debat edə bilərdilər.

Universiteti bitirmək ərəfəsində “fikir və varlıq arasındakı əlaqə” ən görkəmli çağırış oldu mənimçün. Bu suala cavabdan asılı olaraq bizi materialist və idealist olmaqla iki sinfə ayırdılar. Yaşamaq uğrunda mübarizə aparmaq üçün tələbələrin çoxu bu sualın cavabını “fikir” demişdilər.

Sonralar mən özüm pul qazanmaq xatirinə öz xərcimlə səyahət etdim, bəzi malları alıb satırdım, beləcə, ticarətçi oldum. Bu yolla mən yaşamaq üçün materiya bazamı gücləndirdim. Ancaq necə deyərlər, “fəlsəfə olmasaydı dünya necə olardı?” sualı hələ də mənimçün tapmaca idi.

Mən fakültənin binasına daxil olanda orda gördüyüm bütün sifətlər mənə yad idi. Mənim universitetdə işləyən bir tələbə yoldaşımın hara yoxa çıxmasını soruşdum. Cavab məni şoka saldı:

- O çoxdan ölüb.
- Ölüb? Nə baş verib? - soruşdum.
- O qara ciyər serozundan ölüb.

Mən qorxa-qorxa soruşdum:

- Bəs X müəllim necə, o da ölüb?
-Sözlərinizə fikir verin, o çox yaxşıdır, sizin necə diliniz gəlir onu lənətləyəsiniz?

- Ah, üzr istəyirəm, - dedim, sanki çiynimdən ağır yük götürüldü.

- Deyin görüm, o hələ də bu fakültədə dərs deyir?

-Bəli, ancaq siz onu universitetdə tapa bilməzsiniz, heç biz də onu tapa bilmirik. Çünki o universitetdən kənarda bizneslə məşğuldur. Cədvəldə dərsi olanda gəlib dərsini keçir, sonra yoxa çıxır.

Mən heç bir məqsəd olmadan şəhərciyi dolaşmağa başladım. Hələ də beynimdə həmin tapmaca vardı: “Fəlsəfə olmasaydı dünya necə olardı?”

Bu vaxt universitet tələbələri gəlib tələsik yanımdan keçdilər və tədris korpusuna getdilər. Həmin gün ya üçüncü, ya da dördüncü dərs idi. Ancaq bu tələbələr bizim dövrün tələbələri kimi görünmürdü, ya da yəqin ki, onlar başqa fakültənin tələbələri idi. Onların geyimi də bizim geyimdən daha qəşəng idi.

Elmi Fəallıq Mərkəzinin qapısı üstündən bir bayraq asılmışdı. Üstündə bu sözlər yazılmışdı: “Fəlsəfə nədir? - Yeni Əsr beynəlxalq Forumu” .

Şübhə içində zala addımladım. Universitetdə qayda var ki, belə tədbirlərdə hər bir kəs iştirak edə bilər. Forum iştirakçıları maraqlı danışırdılar, ancaq onların dedikləri diqqətimi cəlb etmirdi.

Mənim fikrim tribunada idi. Bəzi sifətlər tanış idi, onlar mənim də müəllimlərim olmuşdu. Bəziləri maraqla qulaq asırdılar, bəziləri isə gözlərini yumub fikrə getmişdilər. Hətta mənim keçmiş baş müəllimim xoruldayırdı. Mən zalı tərk etmək istəyəndə kimsə əlini çiynimə qoydu. Aman Allah, bu ki mənim universitetdə işləyən başqa tələbə yoldaşım idi!

O danışmağa macal tapmamış suallarımı onun üstünə yağdırdım:

- İyirmi il keçib, hələ də sizin tələbələr “fəlsəfə nədir kələfini aça bilməyiblər?

- Biz bu mövzuda tez-tez danışırıq, gələcəkdə də bu sualı müzakirə edəcəyik. Hələ bundan sonra yüz il bu sualı verəcəklər.

Mən həyəcanlandım, onu qıcıqlandırmaq istədim.

- Baş açmıram, əgər sən özün də fəlsəfənin nə olduğunu bilmirsənsə hansı cürətlə tələbələrə dərs keçirsən? Bu ki məsuliyyətsizlikdir! Mən fəlsəfəni iyirmi il əvvəl öyrənmişəm. Ancaq iyirmi il sonra sizin tələbələr yenə də “fəlsəfə nədir?” sualını müzakirə edirlər. Yoxsa bu bir şit zarafatdır? Mən itirdiklərim üçün kompensasiya tələb edirəm. De görək, fəlsəfə olmasaydı dünya necə olardı? - ona sual verdim.

- Heç nə, heç nə dəyişməzdi - o soyuqqanlıqla cavab verdi.